www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-19 (1823) 17 noyabr 2025-ci il




# Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

Rektor Gəray Gəraybəyli: Bu, sadəcə hərbi qələbə deyil, həm də xalqımızın inamı, birliyi və iradəsinin təntənəsidir

səh. 3

## İmtahanlar diqqət mərkəzindədir

səh. 4

## “Konstitusiya və Suverenlik İli”: söz tələbələrindir

səh. 5

## Ekoloji nəqliyyatdan istifadə günün tələbidir

səh. 5




## Ukrayna və Azərbaycan səhiyyə sahəsində əməkdaşlığı genişləndirir

İmzalanan sənədlər içərisində ATU ilə Xarkov Milli Tibb Universiteti arasında qarşılıqlı əməkdaşlıq memorandumu da var

səh. 2

## Ukraynanın səhiyyə naziri ATU-nun fəaliyyətini yüksək qiymətləndirib

səh. 2

## ATU Özbəkistan universitetləri ilə əlaqələri gücləndirir

*Universitetimizin nümayəndə heyəti Səmərqənd və Daşkənddə olub*

səh. 2




## Azərbaycan tibb elmi və təhsilinin inkişafına sadiqliyin təntənəsi

Akademik Mustafa Topçubaşovun 130 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

səh. 3-4

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ölkəmizdə işgüzar səfərdə olan Ukraynanın səhiyyə naziri Viktor Lyaşkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

## Ukraynanın səhiyyə naziri ATU-nun fəaliyyətini yüksək qiymətləndirib



Rektor qonaqları salamlayaraq Azərbaycan və Ukrayna arasında dövlət səviyyəsində formalaşmış dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayıb. O, iki ölkə arasında səhiyyə və tibb təhsili sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.
Professor G.Gəraybəyli görüş iştirakçılarını ATU-nun fəaliyyəti, beynəlxalq standartlara uyğun tədris sistemi, həyata keçirilən islahatlar, müasir elmi-tədqiqat istiqamətləri və universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi sahəsində görülən işlərlə tanış edib. Rektor, həmçinin ATU ilə Ukraynanın Bogomolets adına Milli Tibb Universiteti, Xarkov Milli Tibb Universiteti və digər nüfuzlu elmi-tədris müəssisələri arasında imzalanmış əməkdaşlıq memorandumları barədə məlumat verib.
O, görüş zamanı Azərbaycanın hərbi həkimlərinin İkinci Qarabağ müharibəsi dövründə göstərdiyi fədakarlıq və peşəkarlıqdan söz açaraq, Ukrayna xalqına tezliklə sülh və rifaha qovuşmağı arzulayıb.
Ukraynanın səhiyyə naziri V.Lyaşko səmimi qəbula görə təşəkkürünü bildirərək səfərin əhəmiyyətindən bəhs edib. Nazir Azərbaycan Tibb Universiteti əməkdaşlarının fəaliyyətini və tibb elminin inkişafına verdikləri töhfələri yüksək qiymətləndirib.
Viktor Lyaşko vurğulayıb ki, Ukrayna və Azərbaycan arasında dostluq münasibətləri qarşılıqlı etimad və hörmət prinsiplərinə əsaslanır. O, səhiyyə, tibb təhsili və elmi-tədqiqat istiqamətlərində əməkdaşlığın genişləndirilməsinin hər iki ölkə üçün faydalı olacağını, bu istiqamətdə birgə təşəbbüslərin dəstəklənəcəyini qeyd edib.
Azərbaycan səhiyyə nazirinin müavini Nadir Zeynalov Ukrayna Səhiyyə Nazirliyi ilə birgə icra edilən uğurlu layihələr, xüsusilə tibb təhsilinin təkmilləşdirilməsi üzrə əməkdaşlıq haqqında məlumat verib. O, həmçinin ötən illər ərzində nazirliyin gördüyü mühüm işlərdən və tibb sahəsindəki islahatlardan söhbət açıb.
Qeyd edək ki, görüşdə Ukraynanın Azərbaycandakı səfiri Yuri Husyev, Ukrayna Ali Radasının Səhiyyə, tibbi yardım və tibbi sığorta komitəsinin sədri Mixailo Radutski, Ukrayna səhiyyə nazirinin müavini Edem Adamanov, Ukrayna Milli Xərçəng İnstitutunun baş direktoru Stepan Krulko, Xarkov Milli Tibb Universitetinin Elmi işlər üzrə prorektoru Oksana Nakoneçna, Ukrayna Milli Uşaq Xüsusi Xəstəxanası "OKHMATDYT"in baş direktoru vəzifəsini icra edən Oleksandr Urin, eləcə də ATU-nun Tədris işləri üzrə prorektoru, professor Anar Ağayev, Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Ümumi işlər üzrə prorektor Nizami Adilov, Təsərrüfat işlər üzrə prorektor İlqar Mehrabov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Törə Sadıqova, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak edirdilər.

# Ukrayna və Azərbaycan səhiyyə sahəsində əməkdaşlığı genişləndirir

## İmzalanan sənədlər içərisində ATU ilə Xarkov Milli Tibb Universiteti arasında qarşılıqlı əməkdaşlıq memorandumu da var



**Ukraynanın səhiyyə naziri Viktor Lyaşkonun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana işgüzar səfəri çərçivəsində Səhiyyə Nazirliyində görüş keçirilib. Görüşdə Ukraynanın ölkəmizdəki səfiri Yuri Husyev və Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əlibala Məhərrəmzadə də iştirak ediblər.**
Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ölkələrimiz arasında ikitərəfli əlaqələrin bir çox sahələrdə uğurla davam etdiyini diqqətə çatdırıb. Nazir müstəqilliyin bərpasından sonra Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin formalaşdığını və ikitərəfli əsasda səmərəli əlaqələrin qurulduğunu qeyd edib.
Prezident İlham Əliyevin milli səhiyyənin inkişafına böyük diqqət və önəm verdiyini vurğulayan nazir, bu sahənin modernləşdirilməsi, rəqəmsallaşdırılması, insan kapitalının inkişaf etdirilməsi və səhiyyə iqtisadiyyatının gücləndirilməsinin Azərbaycan üçün prioritet məsələlərdən olduğunu diqqətə çatdırıb.
Öz növbəsində Ukraynanın səhiyyə naziri ölkəsinə göstərdiyi humanitar yardımlara görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. Dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan V.Lyaşko ölkələrimizin tarixi və ənənəvi dostluq münasibətlərinin mövcudluğunu diqqətə çatdırıb: "Heydər Əliyev Fondunun və Azərbaycan Səhiyyə Nazirliyinin dəstəyi ilə nazirliyin Sanatoriya-Kurort Bərpa Mərkəzində valideyn himayəsindən məhrum olan 7-17 yaşlı ukraynalı uşaqlar üçün reabilitasiya kursunun təşkili bunun əyani təsdiqidir".
Daha sonra iki ölkənin səhiyyə nazirlikləri arasında səhiyyə və tibb elmi sahəsində yenilənmiş Əməkdaşlıq haqqında Saziş imzalanıb. Sənədi Azərbaycanın səhiyyə naziri Teymur Musayev və Ukraynanın səhiyyə naziri Viktor Lyaşko imzalayıblar.
Həmçinin Azərbaycan Tibb Universiteti ilə Xarkov Milli Tibb Universiteti arasında qarşılıqlı əməkdaşlıq memorandumu imzalanıb. Tələbə və mütəxəssis mübadiləsi, birgə elmi tədqiqatların həyata keçirilməsi də daxil olmaqla yeni əməkdaşlıq istiqamətlərini nəzərdə tutan sənədi rektor, professor Gəray Gəraybəyli və prorektor Oksana Nakoneçna imzalayıblar.

# ATU Özbəkistan universitetləri ilə əlaqələri gücləndirir

## Universitetimizin nümayəndə heyəti Səmərqənd və Daşkənddə olub



ATU-nun nümayəndə heyəti Özbəkistana səfər edərək, Səmərqənd Dövlət Tibb Universiteti (SDTU) və Daşkənd Dövlət Tibb Universitetində (DDTU) olub.
Səfərin ilk hissəsində universitetimizin rektoru, professor Gəray Gəraybəyli SDTU-nun həmtəşkilatçılığı ilə keçirilən "Əsas lokalizasiyalarda cərrahiyyənin və onkologiyanın aktual problemləri" adlı beynəlxalq elmi-praktik konfransın açılışında çıxış edib.
Sonra SDTU və ATU rektorlarının görüşündə iki ali təhsil müəssisəsinin sıx əməkdaşlıq etdiyi vurğulanıb. Qeyd olunub ki, universitetlər arasında əməkdaşlığa dair anlaşma memorandumu mövcuddur. Bu memorandum çərçivəsində tələbə və müəllim mübadiləsi, qarşılıqlı səfərlər və birgə elmi layihələr mütəmadi şəkildə həyata keçirilir.
Rektor Gəray Gəraybəyli səfərin əhəmiyyətini vurğulayaraq bildirib: "Səmərqənd Tibb Universiteti ilə əlaqələrimiz qarşılıqlı hörmət və etimada əsaslanır. Biz tədris, elmi araşdırma və innovativ layihələr sahəsində əməkdaşlığın daha da genişlənəcəyinə inanırıq".
SDTU-nun rektoru, professor Jasur Rizayev isə azərbaycanlı həmkarlarını Səmərqənddə qarşılamaqdan məmnun olduğunu qeyd edib: "Azərbaycan Tibb Universiteti ilə əməkdaşlıq bizə tədrisin keyfiyyətinin yüksəldilməsi və beynəlxalq təcrübə mübadiləsinin gücləndirilməsi üçün geniş imkanlar yaradır. Xüsusilə Özbəkistandan ATU-ya praktikaya gedən tələbələrimizin tədris şəraitindən və oradakı peşəkar mühitdən razı qalması bizi çox sevindirir".
Səfər zamanı ATU nümayəndə heyəti universitetin tədris binaları, kafedraları, klinik bazası , muzeyləri, Simulyasiya Mərkəzi ilə tanış olub. Görüşlərdə təhsil və elmi-tədqiqat sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.
Daha sonra universitetimizin nümayəndə heyəti DDTU-da olub. Rektor Şuxrat Boymuradov DDTU-nun tarixi haqqında məlumat verərək qeyd edib ki, universitet 2025-ci ildə Daşkənd Tibb Akademiyası, Daşkənd Pediatriya İnstitutu və Daşkənd Stomatologiya İnstitutunun əsasında qurulub.
Rektor G.Gəraybəyli adıçəkilən qurumlarla daha əvvəl əməkdaşlıqların həyata keçirildiyini vurğulayaraq, bu əlaqələrin yeni yaradılmış DDTU ilə davam etdiriləcəyinə inandığını söyləyib.
Görüş çərçivəsində ATU və DDTU arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandum birgə elmi-tədqiqat proqramları, alim və mütəxəssislərin, eləcə də inzibati heyətin mübadiləsi, onların peşəkar inkişafı, bakalavr, magistr və rezidentlərin mübadiləsi, birgə seminarlar, konfranslar və görüşlərin həyata keçirilməsini özündə əks etdirir.
Sonra professor Gəray Gəraybəyli ilə DDTU-nun Psixiatriya kafedrasının professor-müəllim heyəti və tələbələri arasında görüş keçirilib. Görüşdə tədris prosesi, klinik və elmi fəaliyyət, həmçinin mübadilə imkanları haqqında geniş müzakirələr aparılıb.
Həmçinin ATU-nun nümayəndə heyəti DDTU-nun kafedraları, kitabxanası, Elektron Qeydiyyat Mərkəzi və Simulyasiya Mərkəzi ilə yaxından tanış olub.

# Medinex-2025 sərgisi çərçivəsində əczaçılığa dair panel baş tutub

**Medinex-2025 beynəlxalq tibb sərgisi çərçivəsində "Dialoqdan əməkdaşlığa: Ukrayna və Azərbaycanın əczaçılıq imkanları" adlı ikitərəfli müzakirə paneli baş tutub.**
Tədbirdə Ukrayna və Azərbaycanın səhiyyə və əczaçılıq sektorlarını təmsil edən rəsmi şəxslər, ekspertlər və sənaye sahəsinin nümayəndələri iştirak ediblər. Panelin əsas məqsədi iki ölkə arasında əczaçılıq sahəsində təcrübə mübadiləsini genişləndirmək, innovativ istehsal və tədqiqat potensialını artırmaq, eləcə də birgə əməkdaşlıq imkanlarını dərinləşdirmək olub.
Panelin açılışında Ukrayna səhiyyə nazirinin müavini Edem Adamanov çıxış edərək Ukrayna əczaçılıq sənayesində baş verən yeniliklər, yerli istehsalın inkişafı və Azərbaycanla əməkdaşlıq perspektivləri barədə məlumat verib.
Azərbaycan Əczaçılar Assosiasiyasının sədri, Azərbaycan Tibb Universitetinin professoru, Əczaçılıq kimyası kafedrasının müdiri Tahir Süleymanov öz çıxışında ölkəmizdə əczaçılıq təhsilinin və yerli dərman istehsalının inkişaf istiqamətləri, bu sahədə dövlət dəstəyi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi perspektivləri barədə danışıb. O, Ukrayna ilə elm və sənaye sahələrində birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb və iki ölkənin potensialının birləşdirilməsinin regionun dərman təminatına müsbət təsir göstərəcəyini qeyd edib.
Müzakirələrdə, həmçinin Ukraynanın səhiyyə naziri Viktor Lyaşko, Ukrayna Parlamentinin (Ali Rada) İctimai sağlamlıq, tibbi xidmətlər və sığorta komitəsinin sədri Mixayil Radutskiy, "Farmak" şirkətinin Korporativ kommunikasiya direktoru Yevgeniya Piddubna və Strateji inkişaf direktoru Oksana Plotnikova çıxış ediblər.



# Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

## Rektor Gəray Gəraybəyli: Bu, sadəcə hərbi qələbə deyil, həm də xalqımızın inamı, birliyi və iradəsinin təntənəsidir






**Müdafiə Nazirliyinin Milli Müdafiə Universiteti və Azərbaycan Tibb Universitetinin təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünə həsr olunmuş "Zəfərə gedən yolda həkimin mübarizəsi" adlı elmi-praktik konfrans keçirilib.**

Tədbirdən əvvəl rektor, professor Gəray Gəraybəyli, universitetin rəhbər şəxsləri, professor-müəllim heyəti, eləcə də Müdafiə Nazirliyinin məsul əməkdaşları universitetin həyatında şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edərək, önünə gül dəstələri düzüblər.

Sonra iştirakçılar Tələbə Həmkarlar İttifaqı Komitəsi və Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə təqdim olunan rəsm sərgisinə baş çəkiblər. Sərgidə universitet tələbələrinin Zəfər mövzusunda 31 rəsm əsəri və 5 əl işi nümayiş olunub. Rektor tələbələrlə söhbət edib, bir-birindən maraqlı əsərlər ziyarətçilər tərəfindən yüksək qiymətləndirilib.

Oftalmoloq-cərrah, tibb xidməti kapitanı Rəhman Hüseynzadənin aparıcılığı ilə konfrans öz işinə Dövlət Himninin səsləndirilməsi və vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin ruhunun ehtiramla yad edilməsi ilə başlayıb. Tədbirin məq-sədi odlu silah yaralanmaları zamanı həkimlərin multidisiplinar yanaşmasını gücləndirmək, ilkin tibbi yardım və ixtisaslaşmış cərrahi müdaxilə üzrə müasir protokolları müzakirə etmək, real döyüş şəraitində qazanılmış təcrübələri paylaşmaq idi.

Müharibə zamanı həkimlərimizin fəaliyyətini əks etdirən video-rolikin nümayişindən sonra universitetin rektoru, professor Gəray Gəraybəyli çıxış edib. Tədbir iştirakçılarını salamlayan rektor, 8 Noyabr - Zəfər Günü münasibəti ilə hamını təbrik edib. O, Nobel mükafatçısı, böyük türk alimi Əziz Səncərin Qarabağ Zəfəri ilə bağlı fikirlərini yada salıb: "Əziz Səncər Qarabağ Zəfərini türk dünyasının son 200 ildə qazandığı ən böyük qələbə kimi qiymətləndirmişdi. Bu qələbə, sadəcə hərbi qələbə deyil, həm də xalqımızın inamının, birliyinin və iradəsinin təntənəsidir. Hər bir qələbə, hər bir zəfər bu dəyərləri qorumağa, gələcək nəsillərə ötürməyə xidmət edir. Qələbəyə olan inamı isə bizdə Ulu Öndər Heydər Əliyev yaradıb. Onun aşıladığı inam və Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğu" sayəsində Azərbaycan qalib gəldi. Ordumuzun rəşadəti, sücaəti, xalqımızın birliyi sayəsində torpaqlarımız qarış-qarış, kənd-kənd işğaldan azad edildi".

Professor G.Gəraybəyli torpaqlarımızın düşmən işğalından azad olunmasında ATU məzunlarının fədakarlığına toxunaraq, döyüş meydanında onların yaralı hərbçiləri necə təxliyə etmələrindən danışıb. Həmçinin bu qələbənin xalqımıza itkisiz başa gəlmədiyini, müharibə zamanı Tibb Universitetinin 18 məzununun qəhrəmancasına şəhid olduğunu bildirib.

Müdafiə Nazirliyinin Tibb baş idarəsinin rəisi, polkovnik Anar İsmayılov da şanlı qələbəmizin qazanılmasında hərbi həkim və digər tibb işçilərinin müstəsna rolundan söhbət açıb, onların bu qələbədə əvəzolunmaz payı olduğunu vurğulayıb. Müharibə zamanı 42 həkim və tibb işçisinin şəhid olduğunu, 149 nəfərin isə yaralandığını diqqətə çatdıran idarə rəisi, hərbi tibb sahəsində aparılan islahatlar, yeniliklər, yeni inşa edilmiş hospitallar və s. barədə məlumat verib.

Azərbaycan Hepato-Pankreato-Biliar Cərrahlar Assosiasiyasının sədri Eldar Əhmədov həkimlərin döyüşlər zamanı göstərdiyi fədakarlıqları, neçə-neçə hərbçinin həyatını qurtarmalarını, özü və rəhbəri olduğu qurumun üzvlərinin də bu prosesdə yaxından iştirak etdiyini diqqətə çatdırıb.

Konfransın sədri, tibb xidməti polkovnik-leytenantı Anar Aslanov həkimlərimizin şərəfli döyüş yoluna toxunub, nümunələr səsləndirib.

Bildirib ki, Vətən müharibəsində şəhidlərin sayı digər müharibələrlə müqayisədə daha az olub. Bunun səbəbi isə həkimlərimizin birbaşa döyüş meydanında yaralılara ilkin tibbi yardım göstərməsi və onları təxliyə etməsi olub. Onun Zəfərlə bağlı təqdimatı və sonda səsləndirdiyi "Mənim Şuşam" şeiri alqışlarla qarşılanıb.

Açılış mərasimindən sonra konfrans öz işini travmatologiya, reanimasiya, ortopediya, neyrocərrahiyyə, ümumi cərrahiyyə, plastik və rekonstruktiv cərrahiyyə sahələrində çalışan mütəxəssislərin məruzələri ilə davam etdirib.

**Qabil ABDULLAYEV**

### Rektor: "Dövlətimiz hər zaman şəhid ailələri və qazilərin yanındadır"



ATU-nun rəhbərliyi Vətən müharibəsi şəhidlərinin ailə üzvləri olan universitet əməkdaşları ilə görüşüb.

Rektor, professor Gəray Gəraybəyli deyib ki, 30 il həsrətində olduğumuz doğma torpaqlarımız artıq beş ildir ki, qəhrəman Ordumuzun igidliyi və yenilməzliyi sayəsində azadlığa qovuşub.

Rektor bildirib ki, Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində yetişən vətənpərvər nəsil Qarabağın azadlığı uğrunda canından keçərək xalqımıza qürur bəxş edib. Bütün şəhidlərimizin, o cümlədən şəhid tibb işçilərinin fədakarlığı və sonsuz Vətən sevgisi daim minnətdarlıqla anılır.

Rektor vurğulayıb ki, Azərbaycan xalqı qəhrəman şəhidlərini heç vaxt unutmayacaq, dövlətimiz isə hər zaman şəhid ailələri və qazilərin yanındadır.

Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov isə qeyd edib ki, universitet rəhbərliyi şəhid ailəsi üzvü olan əməkdaşlara daim diqqət və qayğı ilə yanaşır, onların sosial problemlərinin həllinə xüsusi önəm verir.

Görüşün sonunda professor Gəray Gəraybəyli 8 Noyabr – Zəfər Günü münasibətilə hər kəsi təbrik edib, xalqımıza sülh, rifah və xoş günlər arzulayıb.

# Azərbaycan tibb elmi və təhsilinin inkişafına sadiqliyin təntənəsi

## Akademik Mustafa Topçubaşovun 130 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib



**Azərbaycan Tibb Universitetində görkəmli alim, tanınmış cərrah və böyük ictimai xadim, akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illik yubileyinə həsr olunmuş "Mustafa Topçubaşov: Akademik irs – 130" adlı elmi-praktik konfrans keçirilib. Tədbir Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə baş tutub.**

Konfransın açılış mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Vətən uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinin anılması ilə başlayıb.

Rektor, professor Gəray Gəraybəyli konfrans iştirakçılarını salamlayaraq qeyd edib ki, bu tədbir yalnız böyük alimin xatirəsinə ehtiram deyil, həm də Azərbaycan tibb elminin və təhsilinin inkişafına sadiqliyin təntənəsidir: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Mustafa Topçubaşovun yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı sərəncam bu tədbirə xüsusi simvolik məna qazandırır. Bu sərəncam bir tərəfdən ölkəmizdə elmə və alimə verilən qiymətin, digər tərəfdən isə milli yaddaşın, elmi irsin qorunmasına göstərilən dövlət qayğısının bariz nümunəsidir".

Mustafa Topçubaşovun adının Azərbaycan elminin salnaməsinə cərrahiyyə məktəbinin qurucusu, elmi təşkilatçı, görkəmli pedaqoq və müdrik ziyalı kimi əbədi həkk olunduğunu vurğulayan rektor bildirib ki, onun fəaliyyəti yalnız tibb elminin deyil, bütövlükdə Azərbaycan ziyalılıq düşüncəsinin inkişafında yeni bir mərhələdir: "Topçubaşov təkcə yüksək dərəcəli cərrah və dəyərli alim kimi deyil, həm də Tibb Universitetində gənc nəslin yetişməsinə böyük töhfələr vermiş, tibb elmini beynəlxalq səviyyəyə çıxarmağa çalışmış ziyalı kimi yadda qalmışdır. Hər zaman elmin, insan həyatının və həkim peşəsinin mənəvi məsuliyyətini də önə çəkən Topçubaşovun adı elmi nailiyyətlərlə yanaşı, həm də milli kimliyimizin, intellektual irsimizin və vətənpərvər ziyalı ənənələrinin simvoludur.






M.Topçubaşov Azərbaycan elminə və maarifinə verdiyi töhfələrlə, milli mənəvi dəyərlərlə və yüksək vətəndaş mövqeyi ilə təkcə öz dövrünün deyil, bütövlükdə elm tariximizin fəxri simalarından biridir. Onun tədqiqatları bu gün də öz aktuallığını qorumaqdadır və bir çox sahələrdə elmi məktəblərin formalaşmasında mühüm rol oynamışdır. Mustafa Topçubaşovun rəhbərliyi ilə aparılan tədqiqatlar, onun müəllifi olduğu elmi əsərlər, yeni nəslin formalaşmasında mühüm mənbə kimi istifadə olunur. O, tibb təhsilində də islahatçı mövqeyi ilə seçilirdi. Əsas hədəfi tibb təhsilini yeni standartlara uyğunlaşdırmaq və milli elmi məktəbin inkişafına stimul yaratmaq idi".

Professor G.Gəraybəyli akademik M.Topçubaşovun elmə, insana və vətənə xidmət ideyalarının bu gün də Azərbaycan səhiyyəsində, təhsilində və cəmiyyətin həyatında yaşadığını söyləyərək, onun adı ilə bağlı olan institutları, mükafatları və keçirilən tədbirləri gələcəyə inamın təcəssümü kimi qiymətləndirib: "Böyük alimin təşəbbüsü ilə tibb təhsilində həyata keçirilən islahatlar, praktik biliklərin önə çəkilməsi, innovativ tədris metodlarının tətbiqi istiqamətində görülən işlər bu gün də Azərbaycan Tibb Universitetinin tədris sistemində mühüm yer tutur. Universitetimizdə keçirilən elmi-praktiki konfrans, seminarlar və digər tədbirlər bizim üçün həm də bir hesabatdır, görkəmli şəxsiyyətin yolunu davam etdirdiyimizi göstərən vəfa borcudur. Bu yubiley sadəcə bir tarix deyil, bu həm də onun ideyalarına, elmi irsinə və mənəvi dəyərlərinə sədaqət andıdır. Ona görə hər birinizi bu tədbirdə fəal iştirak etməyə, alimin irsini daha da dərindən öyrənməyə çağırıram. Əminəm ki, bu konfrans çərçivəsində səslənəcək fikirlər, təqdim olunacaq məruzələr və aparılan müzakirələr yeni elmi baxışlara və yanaşmalara yol açacaq, Topçubaşov irsinin daha dərindən tədqiqinə stimul verəcək".

**(davamı səh. 4-də)**

# Azərbaycan tibb elmi və təhsilinin inkişafına sadiqliyin təntənəsi

## Akademik Mustafa Topçubaşovun 130 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

(əvvəli səh. 3-də)

Tədbirdə çıxış edən səhiyyə nazirinin müavini, dosent Nadir Zeynalov bu böyük şəxsiyyət barədə öz müəllimlərindən çox eşitdiyini deyib: “Mən Mustafa bəyin əməliyyatları, oxuduğu mühazirələr, cərrahiyyə elminə və tədrisinə gətirdiyi yeniliklər, tətbiq etdiyi innovasiyalar barədə onun tələbələri olmuş müəllimlərimdən çox eşitmişəm. O öz həyatı, elmi yaradıcılığı və yorulmaz fəaliyyəti ilə Azərbaycanda bir məktəb yaradıb”.

Bu məktəbin sabah da məzunlar yetişdirəcəyinə inandığını deyən Nadir Zeynalov konfransın işinə uğurlar arzulayıb və tədbirin səmərəli keçəcəyinə əminliyini ifadə edib.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova çıxışında bildirib ki, Mustafa Topçubaşovun yaratdığı elmi məktəb - öz yetirmələrinin cərrahiyyənin təməl biliklərinə mükəmməl bələd olmaları, təbabət elmində mühüm yeniliklərə imza atmaları ilə Azərbaycanda mövcud olmuş digər elmi məktəblərdən fərqlənir. Topçubaşovun milli səhiyyə sisteminin qurulmasındakı fəaliyyətinə toxunan İ.Hüseynova, onun 1926-cı ildə Almaniyaya təcrübə keçməyə göndərildiyini, oradan qayıtdıqdan sonra əldə etdiyi təcrübə əsasında Bakı şəhər xəstəxanalarından birində cərrahi yardım göstərən ilk elmi-metodik mərkəz yaratdığını diqqətə çatdırıb. Qeyd edib ki, görkəmli alim Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasında da mühüm rol oynayıb və uzun illər bu elm ocağının vitse-prezidenti olub. Sonra ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan görkəmli alimin çoxşaxəli həyat və fəaliyyətindən söz açıb: “86 ildən çox mənalı bir ömür sürən akademik M.Topçubaşov öz fəaliyyəti ilə göstərdi ki, elm onun qanında, ruhunda idi – bu ruh isə Azərbaycan xalqının özünə xas, heç kimin əlindən ala bilməyəcəyi bir xəzinəsidir. Onun timsalında bu zəka və fədakarlıq bütöv bir millətin elmi kimliyini təcəssüm etdirirdi.

Topçubaşovlar nəslinin Azərbaycanın tarixində, dövlətçiliyində, taleyüklü məsələlərdə əhəmiyyətli yeri var. Bu şərəfli nəslin kökü XV-XVI əsrlərdə qədim türk torpağı olan İrəvanda təşəkkül tapıb. Peterburq universitetinin professoru Mirzə Cəfər Topçubaşov (1784-1869) və Azərbaycan Demokratik Respublikası Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov (1860-1934) da həmin kökə mənsubdur”.

M.Topçubaşovun 1937-ci ildə cərrahlıq praktikasında yeni, nisbətən təhlükəsiz keyləşdirmə metodunu – “Analgezin" adlanan inyeksion efir-yağ narkozunu tətbiq etməyə başladığını yada salan natiq, həmin yeniliklə əlaqədar maraqlı bir məqama toxunub: “Mustafa bəyin tibb elminə gətirdiyi bu yenilik çox böyük nailiyyət idi və dünyanın hər yerində tətbiq edilirdi. Dünya Nobel Mükafatı Komitəsi Mustafa Topçubaşov adını yaxşı tanıyırdı və bu mükafatı ona verməyə hazırlaşırdı. Amma necə oldusa, birdən-birə Nobellər haqqında əkstəbliğat kampaniyası başlanıldı və onlar Bakı neftini istismar etməkdə günahlandırıldı. Və beləcə, Mustafa Topçubaşovun Nobel mükafatına layiq görülməsi reallaşmadı. Qəribədir ki, həmin il tibb üzrə Nobel mükafatı heç kimə verilmədi”.



Çıxışlarda Mustafa Topçubaşovun Azərbaycan tibb elminin banilərindən biri, cərrahiyyə məktəbinin yaradıcısı olduğu, tibb təhsilində islahatçı şəxsiyyət kimi tanındığı vurğulanıb. Qeyd olunub ki, alimin rəhbərliyi ilə aparılan tədqiqatlar bu gün də öz aktuallığını qoruyur, onun ideyaları isə gənc nəsil tibb mütəxəssisləri üçün elmi və mənəvi örnək olaraq qalır. Həmçinin M.Topçubaşovun tibbi ədəbiyyatın milli dildə hazırlanması təşəbbüsü, praktik biliklərin tədrisdə əsas yer tutması və tələbələrin klinik təcrübəyə cəlb olunması istiqamətində gördüyü mühüm işlər yada salınıb.




Tədbirin davamında musiqiyə də yer verilib. Belə ki, görkəmli alimin oğlu, tibb elmləri doktoru, professor, eyni zamanda bir çox sevilən musiqilərin bəstəkarı İbrahim Topçubaşovun kompozisiyaları Xalq artisti Samir Cəfərov tərəfindən səsləndirilib.

Topçubaşovlar ailəsi adından Mərkəzi Klinikanın baş direktorunun müavini, Əməkdar həkim Ceyhun Topçubaşov çıxış edərək böyük alimin xatirəsinə göstərilən ehtirama görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Rektor, professor Gəray Gəraybəylinin Ceyhun Topçubaşova universitet adından xatirə hədiyyəsi təqdim etməsi ilə ikigünlük elmi-praktik konfransın açılış mərasimi başa çatıb.

Daha sonra və növbəti gün ərzində konfrans öz işini müasir tibb elminin ən dinamik və inkişaf edən sahələrindən biri olan cərrahiyyə üzrə aktual mövzularda müzakirələrlə davam etdirib.

Onu da bildirək ki, yubiley tədbirləri çərçivəsində universitetimizin Əsaslı Kitabxanasında akademik Mustafa Topçubaşovun 130 illiyinə həsr olunmuş xüsusi guşə – stend hazırlanıb. Guşədə alimin çoxşaxəli elmi və pedaqoji fəaliyyətini əks etdirən fotolar, onun haqqında yazılmış kitablar və elmi yaradıcılığını özündə cəmləyən nəşrlər sərgilənir. Qeyd edək ki, M.Topçubaşov 200-dən artıq elmi işin, o cümlədən beşcildlik “Xüsusi cərrahiyyə” əsərinin, 7 monoqrafiyanın, eləcə də bir sıra kəşf və ixtiraların müəllifidir. Onun 1935-ci ildə yazdığı, guşədə nümayiş olunan dissertasiya işi tələbələr tərəfindən böyük maraqla qarşılanır.

**Arif MƏMMƏDLİ**
**Aytac ƏSƏDOVA**

# Konfrans çərçivəsində çoxsaylı tədbirlər təşkil olunub

**Oktyabrın 30-31-də “Mustafa Topçubaşov: Akademik irs – 130” konfransı çərçivəsində cərrahiyyə üzrə aktual mövzular müzakirəyə çıxarılıb.**

“Torakal cərrahiyyədə elm və təcrübənin vəhdəti” adlı sessiyada (moderatorlar: professor Elçin Ağayev və professor Eldar Əliyev) “Ürəyin birincili və metastatik şişlərinə müasir yanaşma” (professor Kamran Musayev), “Uşaqlarda döş qəfəsinin patologiyalarının müalicəsində minimal invaziv cərrahiyyənin rolu” (professor Ramiz Poluxov), “Döş qəfəsinin invaziv radiologiyası torakal cərrahiyyədə nələri dəyişdirdi” (Nicat Alışov, Bakı Medical Plaza Klinikası); “İnteqrativ baxış: pelviko abdominal sahələrdə kliniki və elmi yanaşmalar” sessiyasında (moderatorlar: professor Fariz Camalov və professor Rauf Nağıyev) “Rektovaginal fistulların cərrahi müalicəsində bizim yanaşmamız” (professor Xaləddin Musayev) və “Böyrək transplantasiyasının sərhədləri: mürəkkəb kliniki halların təhlili” (t.e.d Rəşad Şolan); “Estetikdən rekonstruksiyaya - plastik cərrahiyyənin sərhədləri” adlı III sessiyada (moderatorlar: professor Vaqif Qələndər və Adil Cümşüdov) isə “Müxtəlif bərpa və kosmetik əməliyyatların müasir üsullarının istifadəsində klinik təcrübələrimiz” (professor Vaqif Qələndər), “Qabırğa qığırdağı grefti ilə revizion rinoplastika” (Vüqar Ələkbərov) və “Aşağı ətrafların rekonstruktiv əməliyyatlarında mikrocərrahi təcrübələrimiz” (Adil Cümşüdov) mövzularında məruzələr təqdim edilib. Sessiya çərçivəsində ölkəmizin nüfuzlu mütəxəssislərinin çıxışları dinlənilib.

Konfransın panel iclaslarında TEC üzvləri və müxtəlif klinik bazalardan dəvət olunmuş rezidentlər aktual mövzularda çıxışlar ediblər. Dosent İlhamə Mustafayeva və dosent Elman Əzimovun moderatorluğu ilə keçirilən sessiyada “Laparoskopik öd kisəsi əməliyyatları zamanı müşahidə olunan qanaxmalar” (Yusif Həsənov, ATU, cərrahiyyə, IV kurs) və “Dil xərçəngi zamanı onkofunksional cərrahiyyə: DOI-stratifikasiyası, boyun limfodisseksiyası və rekonstruktiv həllər” (Gülnar Nəbiyeva, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, onkologiya, III kurs) və digər mövzularda maraqlı təqdimatlar olub. Bütövlükdə bütün panel sessiyalarında tələbələrin və müəllimlərin fəal iştirakı ilə geniş elmi müzakirələr aparılıb.

Bundan əlavə, konfrans çərçivəsində cərrahi kurslar təşkil olunub. Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev bildirib ki, kafedra tərəfindən “Flexible və Rigid Ureterorenoscopy” kursunun təşkil olunmasında əsas məqsəd gənc həkimlərimizin və rezidentlərimizin ən müasir cərrahi üsullara daha yaxından yiyələnməsinə töhfə verməkdir.







I Cərrahi xəstəliklər kafedrasının dosenti Azər Hümbətov “Qalxanabənzər vəzi düyünlərinin incə iynə aspirasion biopsiya və mikrodalğa ablyasiyası” kursunun nəzəri hissəsində biopsiya və mikrodalğa ablyasiyasına göstəriş, əks-göstəriş və aparılma texnikasını izah edib. İkinci praktik hissədə isə bu prosedur maket və mulyaj üzərində yerinə yetirilib.

Tədris Cərrahiyyə Klinikasının Plastik cərrahiyyə şöbəsinin müdiri, Ümumi cərrahiyyə kafedrasının assistenti Adil Cümşüdovun “Endoskopik üzgərmə əməliyyatı” isə əməliyyatxanadan birbaşa yayımlanıb və iştirakçılar tərəfindən maraqla izlənilib.



# İmtahanlar diqqət mərkəzindədir

Tədris işləri üzrə prorektor, professor Anar Ağayev fakültə dekanları və imtahan nəzarətçiləri ilə görüş keçirib. Görüşdə qarşıdan gələn imtahan sessiyasına hazırlıq vəziyyəti, imtahanların gedişində şəffaflıq və obyektivliyin təmin olunması, eləcə də texniki və təşkilati məsələlər müzakirə edilib.

Prorektor çıxışında qeyd edib ki, ATU-da imtahanların yüksək səviyyədə təşkili rəhbərliyin daim diqqət mərkəzindədir: “Bizim əsas məqsədimiz tələbələrin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsidir. İmtahanların şəffaf və qaydalara uyğun təşkili həm tələbələrə, həm də universitetin nüfuzuna xidmət edir. Hər bir nəzarətçi bu prosesin ədalətli keçirilməsində mühüm rol oynayır”.

Daha sonra Tədris departamentinin rəhbəri Kamandar Yaqubov imtahan prosesində tətbiq ediləcək yeniliklər, qaydalar və nəzarət mexanizmləri barədə məlumat verib: “İmtahan zamanı qaydaların pozulması hallarına qarşı ciddi nəzarət tədbirləri görüləcək. Hər bir nəzarətçi məsuliyyətini dərindən dərk etməli, tələbələrin hüquqlarının qorunmasına və prosesin obyektivliyinə xüsusi diqqət yetirməlidir. Əsas məqsədimiz imtahanların şəffaf və ədalətli keçirilməsini təmin etməkdir”.

Görüşdə, həmçinin imtahanların keçirilmə qrafiki, texniki təminat, qiymətləndirmə meyarları və kommunikasiya məsələləri barədə fikir mübadiləsi aparılıb.

# Şəhid ailəsi üzvü olan tələbələrə maddi yardım göstərilib



Zəfər Günü münasibəti ilə universitetimizin rəhbərliyi, Tələbə Həmkarlar İttifaqı Komitəsi və Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı ilə şəhid ailələrinin üzvü olan tələbələrlə görüş keçirilib.

Tədbiri Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov açaraq, tələbələri 8 Noyabr – Zəfər Günü münasibətilə ürəkdən təbrik edib. O, universitetin rektoru, professor Gəray Gəraybəylinin təbrik və salamlarını çatdıraraq, bu möhtəşəm bayramın xalqımıza daim sevinc, qürur və birlik hissi bəxş etməsini arzulayıb: "Biz bu gün Zəfərimizi qeyd etməklə yanaşı, həm də onun memarları olan qəhrəmanlarımızın, şəhidlərimizin müqəddəs xatirəsini ehtiramla anırıq.

Əziz tələbələr, siz bizim ən dəyərli sərvətimiz, xalqımızın gələcəyisiniz. Sizinlə qürur duyuruq və hər zaman yanınızdayıq. Bu, bizim mənəvi borcumuzdur. Universitet rəhbərliyi, müəllimlər və tələbə təşkilatları hər zaman sizin təhsilinizə, inkişafınıza və gələcəyinizə dəstək olmağa hazırdır".

Prorektor tədbirin təşkilatçılarından olan Tibbi və bioloji fizika kafedrasının professoru, universitet üzrə Qızıl Aypara Cəmiyyətinin sədri Hüseyn Abıyevə xüsusi təşəkkürünü bildirib: "Hüseyn müəllim bayram münasibətilə şəhid ailə üzvlərinə maddi və mənəvi dəstək göstərmək məqsədilə mükafat fondu ayırıb. Eyni zamanda, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov da bu nəcib təşəbbüsə qoşulub, tələbələr üçün əlavə maliyyə yardımı nəzərdə tutub.

Bu diqqət və qayğı, bir daha universitet ailəmizin həmrəyliyini, humanist ruhunu nümayiş etdirir".

Professor Hüseyn Abıyev çıxışında bildirib ki, bizim borcumuz yalnız qələbəni qeyd etmək deyil, həm də onu elm, bilik və zəka meydanında davam etdirməkdir: "Biz döyüş meydanında qalib gəlmişik. Elm, diplomatiya və inkişaf sahəsində də həmişə qalib gəlməliyik. Azərbaycanın səsini dünya tribunalarından eşitdirmək üçün siz gənclər, gələcəyin alimləri və həkimləri bu yolda daha çox çalışmalısınız".

Sonra I Müalicə-profilaktika fakültəsinin dekanı Elşad Novruzov, İctimai səhiyyə fakültəsinin dekanı Qalina Qəniyeva, Stomatologiya fakültəsinin dekan müavini Aysel Həşimova, THİK-in sədri Qoşqar İsmayılov da tələbələri təbrik edərək, xoş arzularını çatdırıblar.

# İnşa müsabiqəsinin 12 qalibindən 5-i ATU-nun tələbəsidir

Oktyabrın əvvəllərində Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatı və "Caspel" Məhdud Məsuliyyətli Cəmiyyətinin birgə təşkilatçılığı ilə ATU-da universitetlərarası inşa-yazı müsabiqəsi keçirilmişdi. "Konstitutsiya və Suverenlik İli" çərçivəsində keçirilən müsabiqədə 48 nəfər iştirak etmişdi.

Noyabrın 3-də YAP Nəsimi rayon təşkilatı tərəfindən Vətən müharibəsində qazanılmış tarixi Zəfərimizin 5 illiyi münasibətilə təşkil edilən tədbirdə inşa-yazı müsabiqəsinin nəticələri elan edilib və qaliblər mükafatlandırılıb. Sevindirici haldır ki, müsabiqənin 12 qalibi arasında 5 tələbəmiz var. Onlardan I Müalicə-profilaktika fakültəsinin II kurs, 124R1b qrup tələbəsi Saraxatun Mirzəliyeva I, 125A6a qrup tələbəsi Sinan Qurbanov II yerə layiq görülüb. Qaliblərə planşet və qiymətli hədiyyələr təqdim olunub.

İnşa müsabiqəsində fərqlənən I Müalicə-profilaktika fakültəsinin II kurs, 124A3b qrup tələbəsi Leyla Pirrəftiyə xüsusi sertifikat, digər tələbələrimizə YAP Nəsimi rayon təşkilatı tərəfindən təşəkkürnamə və hədiyyələr verilib.



# "Konstitusiya və Suverenlik İli": söz tələbələrindir

Noyabrın 5-də İctimai fənlər kafedrasında Konstitusiyamızın 30 illiyinə və suverenliyimizin bərpasına həsr olunmuş Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib. Kafedranın müdiri, professor Qoşqar Əliyev tədbirdə giriş nitqi söyləyib.

Kafedra müdiri bildirib ki, 2024-cü il dekabrın 28-də Prezident İlham Əliyevin Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib: "Bu münasibətlə ölkəmizin hər yerində tədbirlər keçirilib. Bizim tədbirimiz də bu məsələyə həsr olunub.

Azərbaycan Konstitusiyası 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq qəbul edilib və dövlət müstəqilliyimizin hüquqi əsasını yaradıb. Həmin dövrdə Azərbaycan böyük çətinliklərlə üzləşsə də, Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində ölkədə sabitlik və inkişaf təmin olunub. Bu gün həmin siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilib, 2023-cü ildə isə ölkəmizin suverenliyi tam bərpa olunub. Azərbaycan artıq güclü, müstəqil və dünyada söz sahibi olan dövlətdir".

Sonra söz məruzəçi tələbələrə verilib. Aysun Rəsulova "30 illik Konstitusiyamızın bəhrələri", Asiman Qasımova "Şanlı Qələbəmiz Azərbaycanın suverenliyini bərpa etdi", Ayşə Şıxıyeva "Qanla yazılmış qürur tarixi", Əli Məmmədov "Dəmir Yumruğun fəlsəfəsi (II Qarabağ müharibəsi timsalında), Günay Abbasova "Xalqımızın Zəfər bayramı", Gülşən Qarazadə "Tarixi Zəfərimizin memarı", Aysu Qəribova "Azərbaycan Konstitusiyasında suverenlik və dövlət atributları", Lahirə Hüseynova "Antiterror əməliyyatı" və Şakir Orucov "Azərbaycan ordusunun texnoloji modernləşməsi və müasir hərbi innovasiyalar" mövzularında çıxışlar ediblər.

Məruzələrdə vurğulanıb ki, Azərbaycanın 2020-ci il Qarabağ müharibəsində qazandığı zəfər xalqın birliyi və ordunun rəşadəti sayəsində mümkün olub. Azad edilmiş torpaqlarda qurulan yeni həyat və gələcək nəsillərə ötürülən dəyərlər bu zəfərin davamlılığını təmin edir.



Tədbirdə Əczaçılıq fakültəsinin dekan müavini, dosent Esmira Hacıyeva və Azərbaycan dili kafedrasının müdiri, professor Natəvan Hacıyeva da iştirak ediblər. Sonda konfransı aparan İctimai fənlər kafedrasının müəllimi, tarixçi Aidə Təhməzova və professor Qoşqar Əliyev tələbələrə təşəkkür edərək, uğurlar arzulayıblar.

# Universitetimiz Psixiatriya və Sinir Elmləri Konqresində təmsil olunub




Azərbaycan Psixiatriya və Sinir Elmləri Konqresi ölkəmizdə psixi sağlamlıq sahəsində fəaliyyət göstərən mütəxəssisləri bir araya gətirib. İki gün davam edən elmi tədbirdə Azərbaycan Tibb Universitetinin Psixiatriya kafedrasının əməkdaşları da müxtəlif elmi panellərdə moderator və məruzəçi kimi çıxış ediblər.

Tədbiri Azərbaycan Psixiatriya Assosiasiyasının prezidenti, professor Nadir İsmayılov açaraq psixi pozuntuların klinik aspektləri, müasir diaqnostik meyarların tətbiqi və psixiatriyada multidissiplinar yanaşmanın vacibliyindən danışıb, bu istiqamətdə elmi əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Açılış günündə keçirilən "Psixoza müasir baxış" və "Psixozun fərqli üzləri" panellərinə dosent Sevda Katibli və dosent Leyla Mehtiyeva moderatorluq ediblər. Panellərdə psixozların neyrobiologiyası, hallüsinasiya və sayıqlamaların patoloji xüsusiyyətləri, psixozun müxtəlif klinik formaları, dissosiasiya ilə psixozun ayırd edilməsi, həmçinin şizotipal pozuntuların şəxsiyyət xüsusiyyətləri ilə kəsişməsi və rəqəmsal, transkultural psixoz anlayışlarının müasir interpretasiyası kimi mövzular ətrafında elmi müzakirələr aparılıb.

Konqres çərçivəsində professor Fuad İsmayılov, doktor Nərmin Quliyeva və tibb üzrə fəlsəfə doktoru Gülay Məmmədzadə maraqlı və elmi baxımdan əhəmiyyətli məruzələrlə çıxış ediblər. Professor F.İsmayılov "Şizotipal pozuntu – şəxsiyyət problemi, yoxsa psixoz?" mövzusunda olan təqdimatında şizotipal pozuntunun klinik və nosoloji sərhədləri, həmçinin bu pozuntunun psixoz spektrinə aid edilməsi məsələlərinə elmi arqumentlərlə aydınlıq gətirib. N.Quliyeva "Neyroinkişaf pozuntuları və psixoz" mövzusunda çıxış edərək neyroinkişaf patologiyalarının psixoz simptomatikası ilə əlaqəsini, erkən diaqnostikanın klinik əhəmiyyətini və multidisiplinar müalicə yanaşmalarının üstünlüklərini diqqətə çatdırıb. G.Məmmədzadə isə "Rəqəmsal nevroz" mövzusunda məruzə edərək rəqəmsal mühitin insan psixikasına təsiri, texnoloji asılılıq formaları və müasir cəmiyyətlərdə nevrotik davranışların yeni trendləri barədə ətraflı məlumat verib.

**Noyabrın 6-da universitetimizdə növbəti maarifləndirici tədbir baş tutub. Tədbiri Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov acaraq bildirib ki, ATU yüksək səviyyəli, beynəlxalq standartlara uyğun təhsil verməklə yanaşı, mütəmadi olaraq müxtəlif mövzularda maarifləndirici tədbirlər də təşkil edir:**

# Ekoloji nəqliyyatdan istifadə günün tələbidir



**"Bu tədbirlər bir çox dövlət və özəl qurumlarla əməkdaşlıq çərçivəsində həyata keçirilir. Bu gün dünyada ən aktual problemlərdən biri ətraf mühitin qorunması və ekoloji təhlükəsizliyin təmin olunmasıdır. Gələcəyin həkimləri və səhiyyə mütəxəssisləri kimi, tələbələrimizin bu sahədə məlumatlı olmaları, dayanıqlı inkişafa öz töhfələrini vermələri çox vacibdir".**

Prorektor tələbələrimizin mütəmadi şəkildə çimərliklərin təmizlənməsi, ağacəkmə aksiyaları və digər ekoloji təşəbbüslərdə fəal iştirak etdiyini diqqətə çatdırıb. Bu gün keçirilən tədbirin də müasir dövrün ən aktual mövzularından birinə - ekoloji nəqliyyatdan istifadənin təşviqi və ətraf mühitin qorunmasına həsr olunduğunu bildirib. Mövzu ilə bağlı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) və "Apar" şirkətinin əməkdaşlarının tələbələr qarşısında maraqlı təkliflərlə çıxış edəcəklərini qeyd edib.

AYNA-nın Daxili kommunikasiya və tədbirlərin təşkili şöbəsinin rəhbəri Elmira Abbasova təmsil olunduğu qurumun fəaliyyət istiqamətləri, gənclər və tələbələr üçün həyata keçirdikləri layihələr barədə məlumat verib: "AYNA-nın fəaliyyət istiqamətləri çoxşaxəlidir. Eyni zamanda həmişə gənclərin fikirlərinə, təkliflərinə açığıq. İstər ictimai nəqliyyatla, istərsə də velosiped infrastrukturuyla bağlı iradlarınız və ideyalarınız varsa, onları məmnuniyyətlə dinləyəcək və aidiyyəti struktur bölmələrə çatdıracağıq".

Departament rəhbəri "Eko-velosiped" layihəsi üzrə təşkil olunan təlimlərdən və tələbələr üçün nəzərdə tutulan güzəştli təkliflərdən də danışıb.

"Apar" şirkətinin İnnovasiyalar və marketinq departamentinin rəhbəri Fatimə Göyçəli isə bildirib ki, şirkət klassik və elektrikli velosipedlərin icarəsi ilə məşğul olur: "Hazırda 250 parkinq zonamız və təxminən 2200 velosipedimiz mövcuddur. Onların 1000-i adi, mexaniki, qalanları isə 25 km/saat sürət toplaya bilən elektrikli velosipedlərdir".

Tədbir zamanı tələbələri maraqlandıran suallar ətraflı cavablandırılıb. Velosiped sürmək üçün abunə olan və fəallıq göstərən tələbələrə hədiyyələr təqdim olunub.

# Əməkdaşlarımızın uğurları




Professor, tibb elmləri doktoru Vaqif Qələndər beynəlxalq nüfuzlu akkreditasiya qurumu – “Independent Agency for Accreditation and Rating” (IAAR) tərəfindən rəsmi ekspert kimi təyin edilib.
IAAR Avropa Ali Təhsildə Keyfiyyətin Təminatı Assosiasiyasının (ENQA) tamhüquqlu üzvü, Avropa Keyfiyyətin Təminatı Reyestrinə (EQAR) daxil olan və Dünya Tibb Təhsili Federasiyası (WFME) tərəfindən tanınmış beynəlxalq akkreditasiya agentliyidir. Qurum Avropa, Asiya, MDB və Latın Amerikası ölkələrində ali təhsildə keyfiyyət təminatı və akkreditasiya proseslərini həyata keçirir.
Qeyd edək ki, IAAR bir neçə il əvvəl Azərbaycan Tibb Universitetində beynəlxalq akkreditasiya prosesini uğurla həyata keçirib.
Qurum tərəfindən professor V.Qələndərə “Expert III” dərəcəli beynəlxalq ekspert sertifikatı təqdim olunub. Sertifikat 5 il qüvvədə olacaq.

* * *



Şimali Kipr Türk Cümhuriyyətində Türk Uroloji Dərnəyinin 34-cü beynəlxalq konqresi keçirilib. Konqresdə urologiya sahəsində son elmi nailiyyətlər, innovativ müalicə üsulları və klinik təcrübələr müzakirə olunub.
Azərbaycanı tədbirdə universitetimizin Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev təmsil edib. O, konqres çərçivəsində böyrək problemlərinə həsr olunmuş məruzə ilə çıxış edib və elmi fəaliyyətinə görə Türk Uroloji Dərnəyi tərəfindən beynəlxalq üzv statusuna layiq görülüb.
Urologiya sahəsindəki elmi töhfələrinə görə professor Rauf Nağıyev Dərnəyin nüfuzlu “International Academic Contribution Award” mükafatı ilə təltif olunub.
Qeyd edək ki, bu mükafat hər il urologiya sahəsində beynəlxalq elmi fəaliyyətləri ilə fərqlənən xarici mütəxəssislərə təqdim edilir. Bu il mükafatın laureatları sırasında Azərbaycan, Kosovo və Şimali Makedoniyadan olan alimlər yer alıb.

* * *

Bu yaxınlarda “Sankt-Peterburqda Revmatologiya Günləri” mövzusunda XXV Ümumrusiya Yubiley Konqresi keçirilib. Dünyanın aparıcı revmatoloqları, eləcə də müxtəlif ölkələrin elmi-tibbi ictimaiyyətinin nümayəndələrinin qatıldığı konqresə tanınmış akademiklər O.Drapkina, S.Sayqanov, V.Mazurov və Y.Nasonov həmsədrlik ediblər.




Tədbirin açılış mərasimində ATU-nun Fizioterapiya və tibbi reabilitasiya kafedrasının professoru Nadir Hüseynov çıxış edərək böyük rus alimi, akademik V.Nasonovanın Azərbaycanda revmatologiyanın inkişafındakı mühüm roluna toxunub. O, akademikin zəngin elmi irsinin regionda kliniki revmatologiyanın tərəqqisi üçün möhkəm elmi baza yaratdığını bildirib.
Konqresin ikinci günü professor “Naftalan terapiyasının osteoartritli xəstələrin həyat keyfiyyətinə təsiri” mövzusunda plenar sessiyada məruzə ilə çıxış edərək, respublikamızın təbii və əvəzolunmaz sərvəti olan Naftalan neftinin revmatoloji xəstəliklərin kompleks müalicə və reabilitasiyasında yüksək terapevtik təsirə malik olduğunu konqres iştirakçılarının diqqətinə çatdırıb.
Rusiya Revmatoloqlar Assosiasiyası ilə sıx elmi fəaliyyətinə və rəhbərlik etdiyi tədqiqatların yüksək qiymətləndirilməsinə görə professor N.Hüseynov konqresin Təşkilat Komitəsi tərəfindən diplomla təltif olunub.

* * *

Elmi tədqiqatların idarə olunması departamentinin startap koordinatoru, dosent Ayət Cəfərova beynəlxalq innovasiya proqramında iştirak edərək uğurla məzun olub.
İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyində (İRİA) keçirilən mükafatlandırma mərasimində universitetlərin, inkubasiya və akselerasiya mərkəzlərinin, dövlət qurumları-



nın və özəl sektorun nümayəndələri iştirak edib. Proqram bu il Azərbaycan innovasiya təhsilinin ən mühüm hadisələrindən biri kimi qeyd olunub və məqsədi insan kapitalının inkişafı ilə innovasiya menecmentində beynəlxalq standartların tətbiqidir.
A.Cəfərova Global Innovation Institute (GInI) və Code Academy ilə birgə həyata keçirilən “İnnovasiya ekosisteminin oyunçularının sertifikatlaşdırılması və akkreditasiyası” proqramının məzunu olub. Əməkdaşımız proqram çərçivəsində iki beynəlxalq ixtisas əldə edib: Certified Innovation Strategist (CInS) və Authorized Innovation Assessor (AInA). CInS proqramı innovasiya strategiyasının layihələndirilməsi, yenilikçi mədəniyyətin formalaşdırılması və təhsildən-idarəetməyə innovasiyaların inteqrasiyasına yönəlib. AInA isə təşkilatların innovativ yetkinliyini qiymətləndirir, ekosistemin güclü tərəflərini müəyyən edir və inkişaf istiqamətləri üzrə tövsiyələr təqdim edir.

* * *




Bu günlərdə Moskvanın Vega İzmailovo Konqres Mərkəzində Rusiya uşaq cərrahlarının XI Forumu keçirilib. Bu, 2002-ci ildən Rusiya Uşaq Cərrahları Assosiasiyasının himayəsi altında hər il keçirilən və 1800-ə yaxın iştirakçını birləşdirən böyük peşəkar tədbirdir.
Uşaq cərrahiyyəsi, neyrocərrahiyyə sahələri üzrə aparıcı mütəxəssisləri, ixtisaslaşmış xəstəxanaların rəhbərləri və gənc həkimləri bir araya gətirən forumda üç gün ərzində Rusiyadan və qonşu ölkələrdən uşaq cərrahiyyəsi və müvafiq sahələr üzrə mütəxəssislər tərəfindən 120-dən çox təqdimat olub. Mütəxəssislər öz fikirlərini və şəxsi təcrübələrini bölüşərək, ümumi həll yollarını müzakirə edib, geniş spektrli aktual problemlərə toxunublar. Əyani tədbirə 700-dən çox iştirakçı qatılıb.
Azərbaycanı bu forumda ATU-nun Uşaq cərrahiyyəsi kafedrasının assistenti Namiq Xəlilov təmsil edib. O, bölmələr üzrə moderator, “Mühazirələr dövrü” bölməsinin həmsədri olub.
Forumun simpoziumunda “Uşaqlarda pilonidal sinus diaqnostikası və müalicəsi” mövzusunda məruzə ilə çıxış edən N.Xəlilov, müxtəlif dəyirmi masalarda, ustad dərsləri, cərrahi simpoziumlar, elmi şuranın iclasları və gənc alimlərin müsabiqəsində də fəallıq göstərib.

* * *




II Uşaq xəstəlikləri kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Səbinə Cəfərova ABŞ-ın aparıcı tibb müəssisələrindən biri olan Filadelfiya Uşaq Xəstəxanasında (Children’s Hospital of Philadelphia, CHOP) keçirilən Pediatriya Təhsilində Beynəlxalq Müşahidə Proqramında (Global Pediatric Education Program) uğurla iştirak edib.
Proqram dünyanın 26 ölkəsindən olan müxtəlif ixtisaslı pediatrların və tibb mütəxəssislərinin iştirakı ilə keçirilib. İştirakçılar xəstəxananın müxtəlif pediatriya bölmələrində klinik müşahidələr apararaq, diaqnostika və müalicə proseslərini izləyib, müasir tibbi texnologiyaların tətbiqi ilə tanış olublar. Layihənin əsas məqsədi beynəlxalq tibb təcrübəsini paylaşmaq, həkimlər arasında bilik mübadiləsini genişləndirmək və pediatriya sahəsində yüksək peşəkarlığın təşviqinə nail olmaqdır.
Filadelfiya Uşaq Xəstəxanasının tədris və tədqiqat mühiti həkimlərin yalnız elmi biliklərinin artırılmasına deyil, həm də etik davranış, empatiya və komanda işinə dair bacarıqlarının inkişafına yönəlib.
S.Cəfərova proqram çərçivəsində xəstəxananın müxtəlif bölmələrində klinik müşahidələr aparıb, müasir pediatrik yanaşmalarla tanış olub, həmçinin “Azərbaycanda pediatrik xidmətin təşkili” mövzusunda elmi məruzə ilə çıxış edib.





## Pnevmoniya ilə bağlı müzakirələr aparılıb

Ağciyər Xəstəlikləri kafedrasında 12 noyabr – Ümumdünya Pnevmoniya ilə Mübarizə Günü ilə əlaqədar tədbir keçirilib.
Kafedra müdiri, dosent Rafiq Bayramov giriş nitqində tədbirin pnevmoniya haqqında maarifləndirmə və profilaktika tədbirlərinin vacibliyini vurğuladığını bildirərək, Səhiyyə Nazirliyinin də bu sahədə maarifləndirmə işlərinə göstərdiyi diqqət və dəstəyi qeyd edib.
Tədbirdə dünyada və Azərbaycanda pnevmoniyanın yayılma tezliyi, ölüm göstəriciləri, diaqnostikası, müalicəsi və profilaktikası barədə geniş məlumat verilib.
Kafedra əməkdaşları, həkim-rezidentlər, tələbələr və Ağciyər Xəstəlikləri Mərkəzinin mütəxəssisləri mövzu ətrafında müzakirələr aparıblar.
Xüsusilə pnevmoniya riski yüksək şəxslərin – 65 yaşdan yuxarı insanlar, 5 yaşadək uşaqlar, şəkərli diabet və xroniki ürək çatışmazlığı, immun sistemi zəif olanların, siqaret və spirtli içki istifadəçilərinin profilaktik məqsədlə pnevmokok və qrip əleyhinə peyvənd olunması tövsiyə edilib.

## Çikaqo universitetinin professoru mühazirələr oxuyub

**Çikaqo Dövlət Universitetinin (Chicago State University) Sağlamlıq Elmləri və Əczaçılıq Kollecindən (College of Health Sciences and Pharmacy) professor Nadeem Fazal (MD, PhD) universitetimizin qonağı olub.**
O, Tibb və sağlamlıq elmləri təhsili kafedrasında “Trends in Current Education Challenges and Choices” mövzusunda maraqlı və interaktiv seminar təqdim edib. Tədbir zamanı professor müasir tədris yanaşmaları, təhsil innovasiyaları və tədris keyfiyyətinin artırılması istiqamətində müəllimlərlə fikir mübadiləsi aparıb.
Qonaq, həmçinin ATU tələbələrinin simulyasiya əsaslı təlim proseslərini izləyərək universitetdə tətbiq olunan praktik tədris üsulları ilə yaxından tanış olub.
Sonra N.Fazal Sitologiya, embriologiya və histologiya kafedrasının müəllim və tələbə heyəti ilə görüşərək, müasir tibbin inkişaf istiqamətləri və biotibbi tədqiqatların aktual mövzuları haqqında mühazirə oxuyub. O, ABŞ-da səhiyyə təhsilinin modeli, multidissiplinar yanaşmanın əhəmiyyəti, həmçinin elmi araşdırmalarda innovativ metodların tətbiqi barədə təcrübəsini bölüşüb.
Tələbələr və müəllimlər tərəfindən böyük maraqla qarşılanan çıxışda, hüceyrə biologiyası və regenerativ tibb sahəsində aparılan son tədqiqatlara da toxunulub.
Mühazirənin sonunda iştirakçılar professorla fikir mübadiləsi aparıblar.
Professorla növbəti görüş Təcili tibb kafedrasında keçirilib. Görüşdə kafedranın müdiri, dosent Nadir Zeynalov və müəllim heyəti iştirak edib. N.Zeynalov professor Fazalın elmi-pedaqoji fəaliyyəti, 2017-2019-cu illərdə Azərbaycana etdiyi səfərlər və həmin dövrlərdə ATU-da keçirdiyi seminarlar barədə məlumat verib. O, amerikalı professorun müasir tədris metodları və beynəlxalq təcrübənin ali təhsildə tətbiqi sahəsindəki nailiyyətlərini vurğulayıb.
Daha sonra qonaq professor “Tibb təhsilində süni intellektin tətbiqi” mövzusunda təqdimatla çıxış edib. O, tədris prosesində innovativ təlim mexanizmlərinin əhəmiyyətindən, tibbdə süni intellekt və rəqəmsal texnologiyaların tətbiqindən danışıb.

# Azərbaycan Pediatrlar Assosiasiyasının 42-ci Milli Qurultayı keçirilib





1-2 noyabr tarixlərində Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) təşəbbüsü, Səhiyyə Nazirliyi, TƏBİB, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) və Azərbaycan Tibb Universitetinin dəstəyi ilə APA-nın 42-ci Milli Qurultayı keçirilib.

Qurultay uşaqlara tibbi yardımın keyfiyyətinin artırılması, təcrübə mübadiləsi və gənc nəslin sağlamlığının qorunması istiqamətində yeni ideyaların və praktik həllərin müzakirəsinə xidmət edib.

Beynəlxalq tədbirin həmsədrləri APA-nın rəhbəri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, ATU-nun II Uşaq Xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə, Allerqologiya və immunologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, Əməkdar həkim, APA-nın fəxri vitse-prezidenti, professor Lalə Allahverdiyeva və II Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Nailə Sultanova olublar.

Noyabrın 1-də Azərbaycan Tibb Universitetinin Fizika-Kimya korpusunda və Terapevtik Klinikada "Azərbaycanda tibb işçilərinin ali təhsil perspektivləri: keçmişdən gələcəyə doğru", "Pediatriyanın və neonatologiyanın aktual problemləri", "Uşaq nevrologiyası və endokrinologiyasında yeniliklər" kimi panel mövzular üzrə geniş müzakirələr aparılıb. İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva, Tədris Terapevtik Klinikanın direktoru, professor Vəsadət Əzizov və digər tanınmış mütəxəssislər çıxış edərək pediatriyanın inkişaf dinamikasından, elmi tədqiqatların praktiki səhiyyədə tətbiqi yollarından və yeni tədris metodologiyalarından danışıblar.

APA-nın sədri Təranə Tağı-zadə çıxışında Assosiasiyanın 95 illik inkişaf yolunu, uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirləri və qarşıda duran strateji hədəfləri diqqətə çatdırıb. O qeyd edib ki, bu tarixi yol Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti ilə sıx bağlıdır. Bu gün həmin humanist missiya Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun Prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən böyük sədaqət və məsuliyyətlə davam etdirilir.

Qurultayın ikinci günündə Səhiyyə Nazirliyinin sektor müdiri Aynurə Zeynalova, millət vəkilləri Müşfiq Məmmədli, İlham Məmmədov, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının professoru Fatimə Seyidbəyova, İTSDA İdarə Heyəti sədrinin müşaviri Nelli Veysova və başqaları çıxış edərək, 42-ci Milli Qurultayı ölkəmizdə uşaq sağlamlığının gələcəyi, elmi tərəqqi və müştərək əməkdaşlıq baxımından tarixi hadisə kimi qiymətləndiriblər.

Tədbirə Beynəlxalq Pediatrlar Assosiasiyası (IPA), Avropa Pediatrlar Assosiasiyası (EPA/UNEPSA), Avrasiya Uşaq Həkimləri Federasiyası, Rusiya Pediatrlar İttifaqı və digər nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri onlayn qoşulublar.

# Xroniki venoz çatışmazlığı mövzusunda vebinar maraqla qarşılanıb

Tədris Cərrahiyyə Klinikasında AMEA-nın müxbir üzvü, I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramovun təşəbbüsü ilə vebinar keçirilib. Vebinarı adıçəkilən kafedranın assistenti, rezidentlər üçün məsul şəxs Elman Əzimov açıb.



O bir neçə ildir ki, "Mən bunu necə edirəm?" layihəsinin uğurla həyata keçirildiyini bildirib. Layihənin məqsədinin sabahın cərrahlarının, yəni rezidentlərin əməliyyat prosesini real şəkildə izləyərək düzgün istiqamət götürməsindən ibarət olduğunu qeyd edib: "Ötən illər ərzində 25-dən çox vebinar və təlim kursu təşkil etmişik. Bu il isə 11 vebinar keçirilib.

Bu vebinarda Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru Vüqar Fəttah-Pur "Mən varikozu necə müalicə edirəm?" mövzusunda ətraflı məlumat verəcək".

Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva bu cür vebinar və seminarların həkim-rezidentlərin nəzəri biliklərinin möhkəmləndirilməsində oynadığı rola toxunub, ölkənin tanınmış mütəxəssisləri ilə birbaşa təcrübə mübadiləsinə imkan yaratdığını qeyd edib: "Gələn ildən ümumi cərrahiyyə ixtisasını bitirən rezidentlər artıq onkoloji, torakal və digər cərrahiyyə sahələri üzrə ixtisaslaşa biləcəklər. Bugünkü mövzu təkcə cərrahlar üçün deyil, terapevtik, mamalıq-ginekologiya, uşaq cərrahiyyəsi və digər sahələrdə təhsil alanlar üçün də aktualdır".

Professor Vüqar Fəttah-Pur təqdim etdiyi mövzunun xroniki venoz çatışmazlığı olduğunu bildirib: "Mövzunun təqdimatında "mən necə edirəm" sualını işlədirəm, lakin bu söz bir qədər çaşdırıcı ola bilər. Çünki bu gün dünya tibbində bütün fəaliyyətlər sübutlara əsaslanan tibb prinsipləri üzərində qurulur. Bütün addımlar protokollar və beynəlxalq qaydalar əsasında həyata keçirilir. Tibb sahəsi daim inkişaf edir və yerində saymır. Biz akademik sahədə fəaliyyət göstərməklə yanaşı, praktiki işdə də bu inkişafı izləyir və tətbiq edirik. Akademik sahədə çalışmaq bizə həm elmi, həm də praktik biliklərimizi genişləndirmək imkanı verir".

Professor məruzəsində xroniki venoz xəstəliyinin sinifləndirilməsi, kosmetik varikozlar, varikozun müalicə metodları və s. ilə bağlı geniş məlumat verib.

# Bolqarıstan Hərbi Tibb Akademiyası ilə tanışlıq



Azərbaycanın hərbi tibb mütəxəssisləri Bolqarıstanda olub, Sofiya şəhərində yerləşən Hərbi Tibb Akademiyasında görüşlər keçirib.

ATU Hərbi tibb fakültəsinin Tibbi profilaktika kafedrasının baş müəllimi, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov və Müdafiə Nazirliyinin Tibb Heyətinin zabiti, tibb xidməti mayoru Fuad Zeynalov Akademiyanın simulyasiya mərkəzinə baş çəkib, təlim düşərgəsi ilə tanış olublar. Simulyasiya mərkəzində yaralıların döyüş meydanından çıxarılması, təxliyəsi, səhra hospitallarına və keçid məntəqələrinə çatdırılması üzrə təlimlərdə iştirak ediblər. Mərkəzdə real müharibə şəraiti simulyasiya edilərək təxliyə, ilkin tibbi yardım, həkiməqədərki yardım və döyüş meydanında tibbi yardım göstərilməsi ilə bağlı ətraflı məlumat verilib.

Bundan əlavə, nümayəndə heyəti tibb bacısı imtahanlarının keçirilmə qaydaları, eləcə də kursantların kazarma və məişət şəraiti ilə tanış olub, hospitalın infeksiya və kardiologiya bölmələrini, mikrobiologiya şöbəsini ziyarət edib. Onlar, həmçinin Plovdiv şəhərindəki qarnizon hospitalına da baş çəkib, hospitalın şöbələri, kursantların dərs cədvəlləri, yataq və qidalanma şəraiti ilə bağlı məlumat alıblar.

Səfərin sonunda Azərbaycan Tibb Universitetinin hədiyyələri Bolqarıstan Respublikası Hərbi Tibb Akademiyasının rəhbər heyətinə təqdim olunub.

# Professor Amerikada mötəbər tədbirə moderatorluq edib



Tədris Terapevtik Klinikanın Plumonologiya şöbəsinin plumonoloq-konsultantı, tibb elmləri doktoru, professor Əlizamin Sadıqov Amerika Döş Qəfəsi Həkimlərinin Kollegiyasının (CHEST) Amerikada təşkil etdiyi beynəlxalq konqresdə iştirak edib.

Professor dörd gün davam edən konqresdə altı sessiyada moderatorluq, iki sessiyada isə çıxış edib.

Təqdimatlardan biri "İnterstitial ağciyər xəstəliyi ilə kombinasiya olunmuş xronik obstruktiv ağciyər xəstəliyi: fibroz-dominant və iltihab-dominant ILD-nin klinik nəticələrə təsiri", o birisi isə "Yaşlı xəstələrdə hospitaldankənar pnevmoniyaların respirator-viral koinfeksiya patternləri: kimlər ağır xəstəliyə görə risk qrupundadırlar?" mövzularında olub. Təqdimatlar iştirakçılar tərəfindən maraqla qarşılanıb. 2017-ci ildən adıçıkılən kollegiyanın eksperti olan professor Ə.Sadıqov iştirakçıları maraqlandıran sualları ətraflı cavablandırıb.

# Əməkdaşımız Ege Universitetində ezamiyyətdə olub



Normal fiziologiya kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru Mehri Seyidbəyli "Orhun" mübadilə proqramı çərçivəsində Türkiyənin Ege Universitetində ezamiyyətdə olub.

O, fiziologiya fənnindən tələbələrə və uzmanlıq üzrə təhsil alan həkimlərə mühazirə və laboratoriya dərsləri keçib, tədris prosesinin təşkili və metodologiyası barədə elmi mübadilə aparıb. "Elm və qardaşlıq körpüsü" adlı seminarda M.Seyidbəyli Azərbaycan Tibb Universitetinin yaranma tarixindən bu günə qədər keçdiyi inkişaf yolunu, elmi nailiyyətlərini, tələbələrin tədris və sosial şəraitini, beynəlxalq əməkdaşlıqları və universitetin tibb elminin yenilənməsi və inkişafındakı mühüm rolunu iştirakçıların diqqətinə çatdırıb.

Həmçinin Ege Universitetinin rəhbərliyi tərəfindən mədəni tanışlıq proqramı da təşkil olunub. Proqramda adıçəkilən universitetin professor-müəllim heyəti, türk dövlətlərindən olan nümayəndələr İzmir yaxınlığında yerləşən Alaş Kazak Vadisindəki "Kımız Çiftliyi"ni ziyarət edib, türk xalqlarının tarixi yaşam tərzi, ox atmaq, at çapmaq kimi qəhrəmanlıq ənənələri ilə tanış olublar.

Təşkil olunan musiqi axşamında Ege Universiteti Konservatoriyasının müəllim və tələbələri saz, kaman və dombranın müşayiəti ilə "Sarı Gəlin", "Nazəndə sevgilim", "Ayrılıq" kimi Azərbaycan mahnılarını da ifa ediblər.

**Tədris Terapevtik Klinikanın Endokrinologiya şöbəsi və Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığı ilə "Denosumab və bisfosfonatların təsir mexanizmi. Fərqlər və müalicə seçimi" mövzusunda rezidentlər üçün növbəti seminar keçirilib.**

# Rezidentlər üçün növbəti seminar Terapevtik Klinikada baş tutub



Seminarın moderatoru, Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahiyyəsi kafedrasının assistenti Namiq Xəlilov bildirib ki, bu cür seminarlar gənc həkimlərin nəzəri biliklərini artırmaqla yanaşı, onların klinik qərarvermə bacarıqlarını və kritik situasiyalarda düzgün yanaşma qabiliyyətini möhkəmləndirir.

Klinikanın baş həkimi Fəridə Hacıyeva da bu seminarların rezidentlərin inkişafı üçün mühüm əhəmiyyət kəsb etdiyini, ona görə də davamlı şəkildə keçirildiyini bildirib. O, təşəbbüskarlıq göstərərək aktual mövzularda maraqlı təqdimatlar edən rezidentlərə uğurlar arzulayıb.

Çıxışı zamanı terapiya seçiminin fərdi yanaşma tələb etdiyini söyləyən Endokrinologiya şöbəsinin müdiri Səbinə Məşədiyeva-Bayramova xəstənin vəziyyəti, üstünlükləri və müalicə rejiminə riayət etmə imkanlarını nəzərə almağın vacibliyini diqqətə çatdırıb.

Seminar çərçivəsində məruzəni endokrinologiya ixtisası üzrə IV kurs rezidenti Ləman Həsənova təqdim edib. O, çıxışında vurğulayıb ki, bisfosfonatlar osteoporozun müalicəsində, xüsusilə sınıq riski aşağı olan xəstələrdə birinci seçim preparatları hesab olunur. Onların üstünlüyü əlçatanlıq, uzunmüddətli təsir və sübut olunmuş effektivlikdədir. Denosumab isə sürətli və güclü təsir göstərən dərmandır və yüksək sınıq riski, böyrək çatışmazlığı və ya bifosfonatlara əks göstəriş hallarında üstünlük təşkil edir.

Seminarda II Daxili xəstəliklər kafedrasının professoru Sain Səfərova, həkim-müəllimlər, endokrinologiya və daxili xəstəliklər üzrə həkim-rezidentlər də çıxış edərək mövzu ilə bağlı öz fikirlərini bölüşüblər.

# Zəfər Gününə həsr edilmiş yarışların qalibləri mükafatlandırılıb



Noyabrın 7-də universitetimizin “Təbib” Tədris İdman Mərkəzi və Bakı şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə ATU-da Zəfər Gününə həsr edilmiş futzal üzrə (məşqçi-müəllim Şükür Bayramov) yarışların qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

Tədbirdə Bakı şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Sirac Axundov, ATU-nun Hərbi tibb fakültəsinin dekanı, tibb xidməti polkovniki Məhərət Rzayev, məşqçi-müəllimlər və tələbələr iştirak ediblər.

Əvvəlcə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda öz həyatlarını qurban vermiş şəhidlərimizin xatirəsi anılıb.

Bundan sonra çıxış edən “Təbib” Tədris İdman Mərkəzinin müdiri Qələndər Aslanov Zəfər Gününün əhəmiyyətini vurğulayaraq bildirib ki, artıq 5 ildir bu əlamətdar gün münasibətilə müxtəlif idman tədbirləri keçirilir. O, Bakı şəhər Gənclər və İdman İdarəsi, eləcə də Nəsimi rayon Gənclər və idman sektoru ilə birgə təşkil olunan futzal turnirinin artıq ənənə halını aldığını deyərək, yarış iştirakçılarını, xüsusilə də qalibləri təbrik edib və onların gələcəkdə digər idman yarışlarında da fakültəni və universiteti layiqincə təmsil edəcəklərinə inandığını diqqətə çatdırıb.

Mükafatlandırma mərasimində Məhərət Rzayev, Sirac Axundov və Qarabağ qazisi, Hərbi tibb fakültəsinin məzunu Qasım Qasımov da çıxış edərək Zəfər Gününün 5-ci ildönümündə şəhidlərimizi ehtiramla yada salıb, qazilərimizə minnətdarlıq ifadə ediblər. Ali Baş Komandanın uğurlu siyasəti və xalq-ordu birliyinin bu qələbənin əsasını qoyduğunu xatırladan natiqlər, hərbi sahədə peşəkarlığın və ixtisas biliklərinin əhəmiyyətindən söz açaraq yüksək səviyyədə təşkil olunmuş yarışların qaliblərinə uğurlar arzulayıblar.

Tədbirin sonunda futzal üzrə komanda yarışlarının qalibləri mükafatlandırılıb. “Yaşma” komandası I, “Laçın” II, “Nemesis” isə III yerə layiq görülüb. Qalib komandalara diplom və kuboklar, yarışlarda həkim kimi fəal iştirakına görə İlhamə Nazovaya xüsusi təşəkkürnamə təqdim olunub.

**Əsaslı Kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Ziyafət Eminova 4-6 noyabr tarixlərində Türkiyənin Ankara şəhərində keçirilən ANKOSLink-2025 beynəlxalq konfransında iştirak edib.**

## Kitabxanamız ANKOSLink-2025-də təmsil olunub

Bu dəfə “Kitabxana 5.0 və insan mərkəzli rəqəmsal transformasiya” mövzusunda baş tutan konfrans Türkiyə və regionun ən nüfuzlu nəşriyyat və kitabxanaçılıq platformalarından biri hesab olunur. Tədbirdə 37 xarici ölkədən 700-dən çox mütəxəssis iştirak edib.




Konfrans Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə Prezident Milli Kitabxanasında təşkil olunub. 125 min m² sahəsi və 5 min nəfərlik oturma tutumu ilə dünyanın üçüncü ən böyük kitabxanası sayılan bu kitabxanada 5,1 milyondan çox çap nəşri və ümumilikdə 141,7 milyon resurs mövcuddur. Burada 112 ölkədən 135 fərqli dildə əsərlər yer alır və kitabxana bütün vətəndaşların istifadəsinə açıqdır.

Konfransın rəsmi açılışı Prezident Kitabxanaları İdarəsinin müdiri Ayhan Tuğlu, ANKOS prezidenti İsmail Çetinkaya və Türkiyənin təhsil naziri Erol Özvarın çıxışları ilə baş tutub. Daha sonra “Clarivate” şirkətinin məsləhətçi direktoru Vəlid Həsən Türkiyədə elmi tədqiqatların “Open access” (açıq giriş) istiqamətində inkişafı barədə təqdimatla çıxış edib.

Növbəti günlərdə beynəlxalq şirkət və nəşriyyat nümayəndələrinin təqdimatları dinlənilib. Tədbirdə “Kitabxana 5.0” konsepsiyası, insan mərkəzli rəqəmsal transformasiya, rəqəmsal məzmunun qorunması və əlçatanlığı, süni intellekt və etik məsələlər, həmçinin akademik kitabxanalarda süni intellektin rolu kimi mövzular müzakirə olunub.

Azərbaycan nümayəndə heyəti beynəlxalq platformada həmkarlarla təcrübə və fikir mübadiləsi apararaq, kitabxana sahəsindəki yeni tendensiyalar və innovativ yanaşmalarla tanış olub.

## Gələcəyin stomatoloqları bacarıqlarını nümayiş etdirib



Stomatologiya fakültəsində “Dental Sculpture Workshop” adlı tədbir keçirilib. Tədbiri fakültənin dekanı, dosent Elmira Əliyeva açaraq iştirakçıları salamlayıb və bu cür tədbirlərin tələbələrin peşəkar inkişafında mühüm rol oynadığını qeyd edib.

Terapevtik stomatologiya kafedrasının müəllimi, dosent Esmira Abbasova stomatoloqlar üçün əl vərdişlərinin mükəmməl olmasının vacibliyini vurğulayıb. O qeyd edib ki, dişin anatomik quruluşunun, qabar və şırımlarının düzgün təsvir olunması hər bir tələbənin peşəkar hazırlığında mühüm əhəmiyyət kəsb edir.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Qoşqar İsmayılov tədbirdə çıxış edərək “Dental Sculpture Workshop”un tələbələr üçün əhəmiyyətindən danışıb. O vurğulayıb ki, bu cür seminarlar tələbələrin nəzəri biliklərini praktik bacarıqlara çevirməsi baxımından xüsusi rol oynayır.

THİK-in Stomatologiya fakültəsi üzrə nümayəndələri Məryəm Kərimli, Lalə Əhmədzadə, Asel Beyza Gül Yılmaz və Nəzrin Yusibovanın fəal təşəbbüsü və müəllimlərin dəstəyi ilə baş tutan tədbirdə həm Terapevtik, həm də Ortopedik stomatologiya kafedralarının müəllimləri iştirak ediblər.

Tədbirin sonunda qaliblər elan olunub. I yerə Arzu Məmmədova, II yerə Jasmin Verdiyeva, III yerə isə Şöləxanım İbrahimli layiq görülüb.

# Tələbələrimiz “Xəmsə” Milli İntellektual Oyununun qalibi olub



Noyabrın 8-də “Mədəniyyət” televiziyasının təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş “Xəmsə” Milli İntellektual Oyunu keçirilib. Yarışda “Tibb işçiləri”, “FHN Akademiyası”, “Aviasiya Akademiyası” və “4TEA2” komandaları iştirak ediblər.

Gərgin mübarizədən sonra Azərbaycan Tibb Universitetinin tələbələrindən ibarət “Tibb işçiləri” komandası birinci yerin sahibi olub. Komandanın üzvləri İlkin Qurbanlı, Neyman Qeybullayev, Sünbül Oruclu, Rəna Mahmudova və Elvin Abbaszadədir.

Yarışda fərdi olaraq ən çox xal toplayan Sünbül Oruclu həm də “İntellekt cəngavəri” mükafatına layiq görülüb.

Qeyd edək ki, komanda üzvləri Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən İntellektual Oyunlar Klubunun aktiv üzvləridir və turnirlərdə əsasən “Vastator” adı ilə çıxış edirlər.

# Komandamız “Fibonacci”nin finalında uğur qazanıb

Noyabrın 5-də “GİNius Tələbə-Gənclər Kuboku 2025” çərçivəsində “Fibonacci” intellektual-əyləncəli oyunun respublika final mərhələsi keçirilib.

Yarış Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) və “Fibonacci” MMC-nin tərəfdaşlığı ilə Azərbaycan İdman Akademiyasında baş tutub.

Final mərhələsində ölkənin müxtəlif şəhər və regionlarını təmsil edən 33 komanda qalibiyyət uğrunda mübarizə aparıb.

Azərbaycan Tibb Universiteti yarışda Tələbə Həmkarlar İttifaqı Komitəsinin İntellektual Oyunlar Klubunun “OLD School”, “Hiphoprat” və “Vastator” komandaları ilə təmsil olunub.

Yekun nəticələrə əsasən, “OLD School” komandası respublika üzrə üçüncü yeri qazanıb. Komandanın üzvləri - Rəsul Rzayev (222A11a), Bəhruz Abasov (122A8a), Emil Şəfizadə (422A3a), İlahə Sadıqova (121İ1a) və Günay Əzimova (123İ1a) bu uğurun əldə olunmasında böyük pay sahibi olublar. Qaliblər sertifikat və pul mükafatı ilə təltif edilib.




Layihə çərçivəsində oktyabrın 16-dan etibarən ümumilikdə 10 yarımfinal oyunu təşkil olunub. Yarımfinal mərhələləri Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran, Quba, Tərtər və Naxçıvan şəhər və rayonlarını əhatə edib. Ümumilikdə 86 ali və orta ixtisas təhsili müəssisəsindən 164 komanda (820 tələbə) layihədə iştirak edib.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

**KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN**

## MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**

- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Anesteziologiya, reanimatologiya, intensiv terapiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**

- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Təcili tibb kafedrası - 1 yer
- İctimai fənlər kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- Anesteziologiya, reanimatologiya, intensiv terapiya kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,25 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 3 yer (0,5 vahid)
- Nevrologiya kafedrası - 2 yer (0,5 vahid)
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,25 vahid)
- I Mamalıq və ginekologiya kafedrası - 2 yer (0,5 vahid)
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağciyər xəstəlikləri kafedrası - 1 yer
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- Ümumi cərrahlıq kafedrası - 1 yer (0,5 vahid)
- Tibb və sağlamlıq elmləri təhsili kafedrası - 2 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedranın baş müəllimi:**

- Normal fiziologiya kafedrası - 2 yer

**Kafedraların müəllimləri:**

- Tibbi-biologiya və genetika kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)

**Elmi Araşdırmalar Mərkəzi:**

- İmmunologiya şöbəsi (böyük elmi işçi) - 1 yer (0,5 vahid)

**Elmi Araşdırmalar Mərkəzi:**

- Elektron mikroskopiya şöbəsi (kiçik elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın inkişafı” mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları akademik Vaqif Şadlinskiyə və professor Səbinə Şadlinskayaya əzizləri

**Nadir müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın laborantı Rübabə xanıma atası

**Nadir müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0019
Sayı 800